AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 3 (273), 58-67

**M E T O D İ K A**

# I sinif şagirdlərinə sadə qrammatik anlayışların çalışmalar vasitəsilə mənimsədilməsi yolları

***Mahirə Abdullayeva***
Pedaqogika üzrə fəlsəfə doktoru. Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
E-mail: mahiremovlud56@mail.ru
https://orcid.org/0000-0001-8217-0078

**XÜLASƏ**
Məqalədə şagirdlərə I sinfin “Azərbaycan dili” dərsliyində çalışmalar vasitəsilə sadə qrammatik anlayışların formalaşdırılması yolları göstərilir. Dərslikdə verilən çalışmalar 6-7 yaşlı şagirdlərin başa düşəcəyi formada tərtib olunmuşdur. Şəkillərlə verilən əksər çalışmalar uşaqlarda həm məntiqi təfəkkürün formalaşmasına, həm də oxuyub öyrəndiklərini praktik olaraq şüurlu şəkildə dərk etməyə xidmət edir. Çalışmalar verilmiş mətn və şeirlərdən götürülən nümunələr əsasında tərtib olunmuş və qrammatik biliklərdən praktik şəkildə şagirdlərin mənimsəməsi üçün istifadə edilmişdir. Dərslikdə cümlə qurmaq vərdişləri, nitq inkişafı, lüğət ehtiyatının zənginləşdirilməsi ilə yanaşı, söz yaradıcılığı, söz birləşməsi, eyniköklü sözlər, ad, hərəkət, əlamət, say bildirən sözlər, həmçinin məqsəd və intonasiyaya görə cümlə növlərinin şagirdlərə çalışmalar vasitəsilə sadə üsullarla aşılandığının da şahidi oluruq.

**AÇAR SÖZLƏR**
Azərbaycan dili, qrammatik anlayışlar, çalışmalar sistemi, qanunlar, cümlə, praktik tapşırıqlar

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 20.06.2022
qəbul edilib: 19.07.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 3, VOL. 273, 58-67

METHODS

# Simple grammatical concepts for children in the first grade ways of mastering through studies

***Mahira Abdullayeva***
Doctor of Philosophy in Pedagogy. Azerbaijan State Pedagogical University. Azerbaijan.
E-mail: mahiremovlud56@mail.ru
https://orcid.org/0000-0001-8217-0078

**ABSTRACT**
The article shows students how to form simple grammatical concepts through exercises in the first grade textbook “Azerbaijani language”. The exercises in the 1st grade textbook “Azerbaijani language” are designed to be understood by 6-7 year old students, and most of the illustrated exercises serve to develop children's logical thinking and to make them consciously understand what they are reading and learning. Here we also see how simple language rules are instilled in children through studies. Exercises were compiled on the basis of examples taken from the given text and poems, and grammatical knowledge was used here for students to master in practice. In addition to sentence construction skills, speech development, and vocabulary enrichment in the textbook, we also witnessed how word formation, word combinations, words with the same root, nouns, gestures, signs, numbers, and sentence types according to purpose and intonation were instilled in children through simple exercises.

**KEYWORDS**
Azerbaijani language, grammatical concepts, study system, laws, sentences, practical tasks

**ARTICLE HISTORY**
Received: 20.06.2022
Accepted: 19.07.2022

## Giriş / Introduction

Qrammatik qaydalar dildə mövcud olan faktlar əsasında yaranaraq onları ümumiləşdirir. XIX əsrin ortalarında K.D.Uşinski və tərəfdarları qrammatikanın öyrənilməsini vacib hesab edir və onu şagirdlərin canlı nitqi ilə əlaqələndirməyi tövsiyə edirdilər. I sinfin “Azərbaycan dili” dərsliyinə nəzər saldıqda çalışmalar vasitəsilə sadə qrammatik anlayışların uşaqlara praktik yolla necə öyrədilməsinin şahidi oluruq. Məqalədə istifadə edilmiş nümunələr dərslikdə verilən çalışmalar sisteminə əsasən tərtib olunmuşdur [Azərbaycan dili. I siniflər üçün dərslik. Bakı, 2018].

Şagirdlərdə sadə qrammatik anlayışların formalaşdırılmasını çalışmalar üzərində müşahidə edək. Məsələn, I sinfin “Azərbaycan dili” dərsliyindəki tapşırıqda şagirdlərə həm sözlərin, həm hecaların, həm də əlamət bildirən sözlərin tapılması tapşırılır [6, s.32]. Birinci tapşırıqda şagirdlərə belə bir sualla müraciət olunur: “İti sözü bunlardan hansının əlaməti ola bilər?”. Tapşırıqda müxtəlif əşyalar – boşqab, çaynik, qaşıq və bıçaq şəkilləri təsvir edilib. Onların köməyi ilə şagirdlərə əlamət bildirən sözlərin seçilməsi tapşırılır.

Dərslikdə səhifə 27-dən başlayaraq hərflər və səslərin öyrədilməsi ilə yanaşı, uşaqlarda cümlə qurmaq vərdişlərinin də formalaşdırılması üzrə işlər aparılır [1, s.27-37]. Bundan başqa eyni cür səslənən, lakin fərqli mənalar ifadə edən sözlər üzərində də iş aparıldığını görmək olar. Məsələn: *al lalə – Al, Lalə* [1, s.26].

Dərslikdəki bütün çalışmalar demək olar ki, şəkillər vasitəsilə verilmişdir ki, bu da 6-7 yaşlı uşaqların nədən söhbət getdiyini dəqiq başa düşməsinə və tapşırıqları düzgün şəkildə yerinə yetirməsinə kömək olur. Verilən bəzi tapşırıqlarda şəklə əsasən xanalarda buraxılmış hərfləri, çatışmayan hecaları tapmaq, uyğunluğu müəyyən etmək tələb olunur ki, bu vasitələrlə uşaqlar sözləri hecalara düzgün şəkildə ayıra bilirlər [1, s.28-29].

Başqa bir çalışmada isə “Sözlərin düzgün ardıcıllığını tap və cümləəri oxu: yolda dayanıb dayım bibi yandırır təndiri Aliyə” kimi verilmişdir [1, s.42]. Şagirdlər cümləni quraraq səpələnmiş sözləri yerinə qoyur, mübtəda və xəbər, ikinci dərəcəli üzvlər barədə sadə anlayışlar əldə edirlər. Beləliklə, dağınıq verilmiş sözlərdən cümlə qurmaqla onların həm şifahi, həm də yazılı nitqi inkişaf edir. Belə tapşırıqlardan istifadə cümlə üzvlərini tapmağa imkan verir, baş üzvlər və ikinci dərəcəli üzvlər barədə də şagirdlər praktik biliklər əldə edir. Dərslikdə bu kimi çalışmalara, həmçinin qısa həcmli mətn qurmağı tələb edən tapşırıqlara da tez-tez rast gəlinir.

"K" səsi və hərfinin öyrədilməsi zamanı "bəzən *"ke"*, bəzən isə *"ka"* səsinin tələffüzü izah olunur, həmçinin *"o"* ilə yazılıb *"a"* kimi tələffüz edilən sözlər də verilmiş nümunədə öz əksini tapır [1, s.50]. Məsələn:

| | |
|---|---|
| ka-sa | ko-man-da |
| mas-ka | mək-təb-li |
| ki-sə | kər-tən-kə-lə |
| kos-mos | Kə-ma-lə |

Daha sonrakı tapşırıqda hər sütundakı sözlərdən birində "k" səsi fərqli tələffüz olunur. Həmin sözü tapmaq tələb olunur [1, s.50].

| | |
|---|---|
| mayka | kabab |
| kanal | kənd |
| kosmos | kitab |
| kəndir | banka |

Dərslikdə belə bir tapşırığa da rast gəlirik: "ke" ilə "ka"-nın fərqini aydınlaşdırmaq üçün şagirdlərə belə bir sual verilir: "Hansı şəklin altında "ka" hərfi var? Burada kreslo, tülkü, leylək, kasa şəkilləri verilmişdir".

"Polis və uşaqlar" mətnində göy rənglə "sarı" sözü verilir və 3-cü çalışmada oxuyuruq: "Mətndə göy rənglə verilmiş sözə diqqət yetir və şəkillə mətn arasındakı uyğunluğu müəyyən et" [1, s.53]. Burada sözlərin müxtəlif rənglərlə verilməsi şagirdlərin rəng bildirən sözləri tapmasını asanlaşdırır. Bu da onlarda praktik şəkildə sifət haqqında məlumatın formalaşmasına kömək edir. Sözlərin tapılması üzrə işlərdən biri də "Sözləri düzgün birləşdir və oxu" tapşırığıdır. Burada sözlər qarışıq verilir [1, s.54]:

| | |
|---|---|
| odun | suyu |
| şəkərbura | turşusu |
| şollar | şələsi |
| şəlalə | dadı |
| kələm | şırıltısı |

Belə çalışmaların köməyi ilə uşaqlarda söz birləşməsi haqqında ilkin təsəvvürlərin yaranması, həm də bu vasitələrlə onların söz ehtiyatının zənginləşməsi nəzərdə tutulur.

Dərslikdəki "Ad günündə" mətnindəki göy rənglə verilmiş sözləri şagirdlərin nəzərinə çatdıraraq onlardan birinin rəng, digərinin isə say bildirən sözlər olduğu izah olunur [1, s.55]. Digər çalışmanın köməyi ilə uşaqlara rəngli şəkildə verilmiş say və əlamət bildirən sözlərə diqqət yetirmək tapşırılır. Nəticədə, şəkildəki rəsmlə göy

rənglə verilmiş sözlər arasındakı fərq müəyyən edilir. Uşaqlar belə vasitələrin köməyi ilə başa düşürlər ki, şar mətndə yaşıl, şəkildə isə qırmızı rənglə verilmişdir, həmçinin mətndə tortun üzərində altı şam qoyulduğu izah olunur, şəkildə isə cəmi 5 şam təsvir olunur. Bu kimi fərqləri ayırd etməklə uşaqlar əlamət və say bildirən sözlərlə də praktik şəkildə tanış olurlar. Belə çalışmalar uşaqlarda həm də təfəkkür qabiliyyətini inkişaf etdirir.

Dərslikdə çalışmalar getdikcə çətinləşdirilir. Burada 3, 4 hecalı, o cümlədən uşaqların tələffüz zamanı hecalara ayırmaqda çətinlik çəkdiyi sözlərə rast gəlirik [1, s.58]. Məsələn: *pey-vənd, kvad-rat, vo-ley-bol, Va-li-də, ve-lo-si-ped.* Bu kimi sözlərlə iş öz əksini çalışmalarda da tapır. Məsələn, *"valideyn, samovar, nərdivan, vələmir"* sözləri verilir, onların düzgün hecalara ayrılması və tələffüzü üzərində iş aparılmasının şahidi oluruq [1, s.58]. Bunlar həqiqətən də həm tələffüzdə, həm də yazıda uşaqlara çətinlik törədə bilən sözlərdir. Məsələn: şəkildə *dəvə və quş – dəvəquşu* verilir. Uşaqlar praktik yolla iki müxtəlif sözün birləşməsindən mürəkkəb sözün yaranmasını müşahidə edirlər.

Başqa bir çalışmada "Uyğunluğu müəyyən et"mək tələb olunur [1, s.60]. Məsələn:

| | |
|---|---|
| mavi | kəpənək |
| yaşıl | dəniz |
| alabəzək | meyvə |
| ləzzətli | yazı |
| savadlı | zəmi |

Göründüyü kimi, tapşırıqda sözlər qarışıq verilir və uşaqlardan uyğunluğu müəyyən etməklə həm rəng, həm də əlamət bildirən sözlərin tapılması tələb olunur.

Belə çalışmalardan biri də "Ardıcıllığı tap" adlanır [1, s.62]. Məsələn: "üzük aldı Südabə dükandan südlü Ülkər yedi aş düşürəm türk mən dilini başa". Burada əvvəldə verdiyimiz nümunədən də bir qədər mürəkkəb çalışmaya rast gəlirik. Uşaqlar pərakəndə halda düzülmüş sözlərdən bir neçə cümlə qurmaqla qazandıqları vərdişlərin bir daha möhkəmlənməsinə nail olmağa çalışırlar.

Elə burada, tapşırıq 3-də verilən mətndə ad bildirən isimlərdən söhbət açılır və çalışmada böyük hərflə yazılan sözün ölkə adı (Azərbaycan) olduğunu müşahidə edirik. Bu kimi çalışmalar vasitəsilə şagirdlərin diqqətini mətndəki digər ad bildirən isimlərə yönəltmək mümkündür. Məsələn: *Kür, Ülkər, Ülvi, Abşeron.*

Daha bir çalışmaya diqqət edək: "Boşluqların yerində əlamət bildirən sözlər işlət: görkəmli, ətirli, yelkənli.

1. Güldanda --------- güllər var idi.

2. Göldə -----------gəmi üzürdü.
3. Bu gün----------şairlə görüşdük" [1, s.66].

Elə burada, yəni tapşırıq 3-də verilən "Göy göl" mətnində xüsusi isimlər verilmiş və çalışmada şagirdlərdən "Mətndə böyük hərflə yazılan hansı söz dağ adı bildirir?" sualı soruşulur.

Belə çalışmalardan birində qarğa, qaranquş, qartal şəkilləri verilmiş və "Hansı şəklin adında bir heca fərqlidir?" sualı qoyulmuşdur. Bu tapşırığın köməyilə uşaqlar praktik və çox sadə üsullarla kökü eyni olan sözlərlə tanış olurlar.

Daha sonrakı çalışmada "Yaxın mənalı sözləri tap"maq tələb olunur. Məsələn: "xeyr – yox, daxma – koma, qoxu – iy, xəbər – məlumat, xoşbəxt – bəxtəvər" [1, s.70].

"Bala" sözünə *-ca* şəkilçisinin artırılması ilə "balaca" sözünün əmələ gəlməsini müşahidə edirik [1, s.74]. Deməli, burada şagirdlərdə kök və şəkilçi haqqında sadə anlayışlar formalaşdırılmağa çalışılır. Müxtəlif sözlərin vasitəsilə lazım gəldikdə *-ca*$^2$ şəkilçisinin əlavə edilməsi tələb olunur. Məsələn: *bala-ca-navar, nəti-cə-sarət.*

Verilən bu cür çalışmalar da diqqət cəlb edir. Burada yaxınmənalı sözləri tapmaq tələb olunur. Çalışmada qarışıq sözlər verilir. Şagirdlər *"müjdə – xəbər, jest – hərəkət, jüri – münsif, jalüz – pərdə, jalə – şeh"* olduğunu müəyyənləşdirməklə həm də praktik şəkildə sinonim sözlər barədə məlumat əldə etmiş olurlar.

Dərslikdə "Coşğun" mətnində sual cümləsi qırmızı rənglə verilmiş, elə həmin səhifədəki çalışmada "Mətndə altından xətt çəkilən sözləri başqa sözlərlə əvəz et"mək tələb olunur ki, bu da şagirdlərin sinonimləri praktik şəkildə dərk etmələrinə imkan verir. Belə tapşırıqlardan biri də "Nənənin eynəyi" mətnindən "*Eynək* sözünü əvəz edən sözü tap" kimi verilmişdir. Bu vasitələrlə uşaqlarda həm nitq inkişafına, həm də söz ehtiyatının zənginləşməsinə nail olmaq mümkündür. Nəticədə, uşaqlar "eynək" sözünü "gözlük" sözü ilə əvəz edərək çalışmanı yekunlaşdırmağa nail olurlar.

Uşaqların diqqətini orfoepik qaydalara yönəltmək məqsədilə şəkillərin düzgün ardıcıllığına nail olmaq üçün verilən çalışmalara nəzər salaq. Həmçinin burada suallara cavab verməklə kiçik bir mətn yazmaq da tələb olunur ki, bu da şagirdlərdə həm nitq inkişafına kömək edir, həm də onların lüğət ehtiyatını zənginləşdirir.

Dərslikdəki çalışmalardan biri "Ad bildirən sözlərin qarşısında müvafiq hərəkət bildirən sözləri yaz" şərti verilən tapşırıqdır [1, s.95]. Bu çalışma şagirdlərdə praktik şəkildə isim və feil haqqında ilkin anlayışlar formalaşdırır. Məsələn: miyoldayır, hürür, kişnəyir, böyürür.

İt ----------, inək--------, at--------, pişik-------.

Dərslikdə verilən maraqlı çalışmalardan biri də "Ad və hərəkət bildirən sözləri birləşdir və dəftərində yaz" adlanır:

| | |
|---|---|
| Gülləri | süpürdü |
| Tozu | suladı |
| Həyəti | sildi |

Dərslikdəki "Ana yurdum" şeirində şagirdlərdən hansı rənglə verilmiş sözlər yaxınmənalıdır?" sualı soruşulur, tapşırıqdakı əksmənalı sözlər göy, yaxınmənalı sözlər isə yaşıl rənglə təqdim olunur [1, s.104-105].

Belə bir çalışmaya diqqət yetirək: "Zolaqlı burunduq" mətnində "Əlamət bildirən sözlərdən hansını burunduğa aid etmək olar?" sualı qoyulur və burada: "tənbəl", "paxıl", "zəhmətkeş", "qəddar", "səxavətli", "qorxaq" sözləri verilir [1, s.110]. Bununla da uşaqlar əlamət bildirən sözləri oxuduqları mətnlə də əlaqələndirərək burunduğa aid xüsusiyyətləri tapmaqla yanaşı, əlamət bildirən sözləri də seçə bilirlər.

Buna bənzər çalışmalardan biri "Əlamət bildirən sözlərdən uyğun gələnləri nöqtələrin yerinə qoymaqla mətni köçür"mək tələb olunan tapşırıqdır [1, s.110]. Məsələn: "hiyləgər, zalım, ağıllı" kimi sözlərin işləndiyi cümlədə buraxılmış sözləri nöqtələrin yerinə əlavə etmək tapşırılır. Cümlələr isə belədir:

"...canavar və ...tülkü kirpini aldadıb yemək istədilər. Amma ...kirpi onların fikrini başa düşdü".

Başqa bir çalışmada isə şagirdlərə "Sual cümləsini göstər"mək tapşırılır. Belə çalışmalar dərslikdə çoxluq təşkil edir. Bu vasitələrlə uşaqlarda cümlənin məqsəd və intonasiyaya görə növləri barədə ilkin təsəvvür yaradılır, sual cümləsinin nə məqsədlə, necə yaranması və sonunda hansı durğu işarəsinin qoyulması barədə şagirdlərə praktik biliklər aşılanır. Onlar başa düşürlər ki, cümlənin məqsədindən asılı olaraq sözlərin deyiliş forması da müxtəlif olur. Şagirdlər praktik şəkildə intonasiya haqqında məlumatlara yiyələnir, məqsəddən asılı olaraq cümlənin nəyə xidmət etməsi nəzərə alınaraq sonda lazım olan durğu işarəsinin qoyulmasına nail olurlar. Belə çalışmaların köməyi ilə şagirdlər durğu işarələrinə düzgün şəkildə əməl etməyin vacibliyinə əmin olurlar.

Dərslikdəki çalışmalardan biri də "Turqut hansı sözlərdə "d" hərfinin yerinə başqa hərf qoydu. Həmin sözləri seçib yazın" adlanır. Məsələn: *"durna – zurna, dovşan – yovşan, dəniz – bəniz, duzu – buzu, dükana – sükana, duzlayır – buzlayır, dibinə – cibinə, qədər – qəmər, yada – yaza, deyənə – yeyənə"*. Belə tapşırıqların

məqsədi bir hərfin dəyişməsi nəticəsində sözün mənasının tamamilə dəyişməsini uşaqlara aşılamaqdan ibarətdir.

Dərslikdə yaxınmənalı sözlər və onların düzgün hecalara ayrılması üzərində iş aparılmasına dair tapşırıq da verilmişdir. Şagirdlərə "Nə üçün pişik yeməkdən sonra yuyunur?" nağılından nida cümlələrini seçmək tapşırılır. Bu isə yenə də uşaqlara cümlənin məqsəd və intonasiyaya görə növlərini mənimsətmək məqsədini daşıyır. Belə cümlələrdə sevinc, kədər və s. hissləri ifadə etməklə yazıda nida işarəsinin qoyulmasının vacibliyi də vurğulanır.

Dərslikdə "Hara gedirsən axşam?" şeiri verilir və çalışmada şagirdlərdən "Hansı cümlədə "şam" sözü mətndəki mənasında işlənib?" sualı soruşulur [1, s.117].

a) Külək əsib şamı söndürdü.
b) Güclü külək meşədəki şamı yıxdı.
c) Uşaqlar şam yeməyinə oturdular.

Burada isə uşaqlar praktik yolla deyilişi və yazılışı eyni olan, lakin mənaca fərqlənən sözlər barədə məlumatlandırılır.

Diqqəti cəlb edən çalışmalardan biri də "Dovşan *qar* sözünə hecalar artırmaqla hansı sözləri yaratdı?" tapşırığıdır [1, s.126]. Sözlər isə həmin səhifədəki "Cırnatma" mətnində verilir. Məsələn: *qar-maq, qar-topu, qar-tal, qar-mon, qar-pız, qar-qız*. Belə çalışmaların köməyi ilə şagirdlərdə söz yaradıcılığı formalaşdırılır, onlarda söz ehtiyatı yaranır, lüğətləri zənginləşdirilir.

Dərslikdə uşaqlara cümlənin bitmiş fikir bildirməsi bu cür izah olunur: "Hansı rənglə verilmiş misra cümlə deyil?". Burada "Küsən kitab" şeiri verilir və "Ana gördü kitaba" misrası göy rənglə uşaqların nəzərinə çatdırılır. Şagirdlərin bu məqamı diqqət mərkəzində saxlamasını təmin etmək məqsədilə rənglərdən istifadə, yəni, müəyyən sözlərin mətnlərdə və şeirlərdə seçilməsi, demək olar ki, dərsliyin çox hissəsində rastlaşdığımız mənzərədir. Çalışmaların belə təşkil olunması orada qoyulmuş məqsədə nail olmaqda şagirdlərə kömək edir.

Digər bir çalışmada "Dostluq köməyi" mətnindən "dodağı qaçdı" ifadəsi işlənir və tapşırıqda da şagirdlərdən bu sözün mənasını izah etmək tələb olunur [1, s.142-145]. Dodağın həqiqi mənada qaçmadığını başa düşən uşaqlar praktik yolla bunun məcazi mənalı söz olduğunu anlayır və əslində sözün mənasını "gülümsəmək" kimi başa düşürlər.

Dərslikdə şagirdlərə "Bunu eləmək olmaz" şeirində nəyi etmək olar, nəyi isə olmaz kimi məsələləri dərk etdirməklə yanaşı, tapşırıqda yaxınmənalı sözün

tapılması, "qaz" sözünün isə hansı cümlədə mətndəki mənasında işlənməsini müəyyən etmək tələb olunur.

Dərsliyin əvvəlindən sonuna kimi şagirdlərdə nitq inkişafına, həmçinin cümlə qurmaq vərdişlərinin inkişafına yönələn çalışmalar çoxluq təşkil edir [1, s.153]. Məsələn: Bu çalışmada "Şeirdə hansı rəngli misra cümlə deyil?" tapılması tələb olunur və verilən cavablar aşağıdakı kimi təqdim olunur:

1) Mən yalan danışmıram;
2) Mən doğruçu oğlanam;
3) Bunu hamıdan yaxşı.

Bir daha görünür ki, uşaqların bitmiş fikrin nə demək olduğunu dərk etmələri üçün bu cür çalışmalar xüsusilə əhəmiyyətlidir.

## Nəticə / Conclusion

I sinfin "Azərbaycan dili" dərsliyində qrammatik biliklərin aşılanması sadə və praktik quruluşa malik olsa da, şagirdləri gələcəkdə sistematik qrammatika kursunu mənimsəmələrinə hazırlayır. Qeyd edək ki, Kurikulumda dil qaydalarının öyrədilməsi nəzərdə tutulur ki, məhz dərslikdəki tapşırıqlar da bu məqsədə xidmət edir.

Qrammatika dərslərində şagirdlərin fəallığını təmin etmək məqsədilə interaktiv metodlardan geniş istifadə bu biliklərin şagirdlər tərəfindən daha maraqla mənimsənilməsinə kömək edir. Belə ki, dərs prosesi zamanı şagirdlərin diqqətini izah olunan materiala cəlb etmək lazımdır ki, onlar izahatın gedişini izləməklə yanaşı, müəllimin verdiyi məlumatı da yaxşı mənimsəsinlər. İzahat eyni zamanda şagirdlərin əqli fəaliyyətinin fəal bir forması rolunu oynamalıdır. Qrammatik materialın müəllim tərəfindən izahı zamanı şagirdlər öz fikirlərini sübuta yetirmək üçün nümunələr gətirir, mühakimə yürüdür, müxtəlif əqli əməliyyatlar aparırlar. Qrammatik məlumatın izahı prosesini uzun-uzadı danışmaq yorucu ola bilər. Əsas qrammatik hadisələr şagirdlər tərəfindən mənimsənildikdən sonra bəzi cəhətlər üzərində dayanmaq, onları bir qədər də dəqiqləşdirərək təhlillər aparmaq və deyilənləri tətbiq etmək olar.

Dərsliyin təhlilindən görünür ki, belə çalışmalar kiçik yaşlı məktəblilərin qrammatik anlayışları daha yaxşı mənimsəmələrinə xidmət edir və gələcəkdə daha mürəkkəb tapşırıqların yerinə yetirilməsinə zəmin yaradır.

## İstifadə edilmiş ədəbiyyat / References

1. Azərbaycan dili. I siniflər üçün dərslik. (2018). Bakı.
2. Abdullayev A.S., Kərimov Y.Ş. (2013). İbtidai siniflərdə ana dili tədrisinin metodikası. Bakı, Maarif. 374 s.
3. Abdullayev N.Ə. (1986). Ədəbi tələffüz təliminin metodikası. Bakı, Maarif. 160 s.
4. Abdullayeva G.A. (2007). Nitq mədəniyyəti və nitqin ifadəliliyi. Bakı.
5. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Ümumi ibtidai təhsil. Kurikulum. (2008). №1, s.131-150.
6. Azərbaycan Respublikasının təhsil sahəsində islahat Proqramı. (1999). Bakı, 64 s.
7. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ana dili kurikulumu (layihə). (2006). Azərbaycan müəllimi, 18 avqust.
8. Balıyev H.B. (1997). Azərbaycan dilinin tədrisi metodikası. Bakı, ADPU nəşri. 102 s.
9. Balıyev H.B. (2013). Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, ADPU nəşri. 425 s.
10. Cəfərova N.Q. (2016). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik, I hissə. Bakı, 403 s.
11. Cəfərova N.Q. (2019). İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik, II hissə. Bakı, 430 s.
12. Nəbiyeva Ş.Z., Abdullayeva G.A., Kərimova A.S. (2015). İbtidai siniflərdə ana dilinin tədrisi metodikası fənnindən mühazirələr. Dərs vəsaiti. 518 s.